TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_______________ E.M.Ağayev

"11" iyul 2017-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**İstifadə etməzdən əvvəl bu içlik vərəqəni diqqətlə oxuyun!**
Bu içlik vərəqəni saxlayın, ola bilsin ki, Siz onu yenidən oxumalı olasınız.
Əgər Sizdə əlavə suallar yaranarsa, zəhmət olmazsa, həkiminizlə məsləhətləşin.

**İSLA-MİNT** pastillər (şirin tabletlər)
ISLA-MINT

**Tərkibi**
*Təsiredici maddələr:* 1 pastilin tərkibində 100 mq (2-4:1) İslandiya mamırının sulu cövhəri vardır.
*Köməkçi maddələr:* kristallaşmayan 70%-li sorbit məhlulu (E420), aspartam (E951), akasiya (yapışqan), nanəcövhər yağı, xlorofillərin mis kompleksləri (E 141), yüngül mineral yağ, təmizlənmiş su.

**Farmakoterapevtik qrupu**
Boğaz xəstəlikləri zamanı istifadə edilən preparatlar.

**İstifadəsinə göstərişlər**
Boğazın yoluxucu-iltihabi xəstəlikləri, laringit, faringit, o cümlədən allergik mənşəli xəstəliklər (quru, qıcıqlandırıcı öskürək, səsin xırıldaması); kəskin və xroniki bronxitlərdə və xroniki bronxitlərdə və bronxial astma zamanı kompleks terapiyanın tərkibində quru öskürəyin simptomatik terapiyası;
Səs tellərinə artıq yüklənmə (müğənnilərdə, müəllimlərdə, məruzəçilərdə).
Ağız boşluğu və udlağın selikli qişasının quruluğu və qıcıqlanması (qızdırılma dövründə, kondisionerlə təchiz edilən məkanlarda kifayət qədər nəmlənməyən havanın udulması, qızdırılma dövründə yaşayış otaqlarının quru atmosferində və ya kifayət qədər nəmlənməyən ofis məkanlarında selikli qişanın qıcıqlanması, burunla tənəffüsün məhdudlaşdığı zaman və ya idman yarışlarında)

**Əks-göstərişlər**
Fenilketonuriya. Fruktozaya qarşı dözümsüzlük. Preparatın komponentlərindən hər hansı birinə qarşı yüksək həssaslıq.